# Dünyanın tanınmış şirkətləri Azərbaycana maraq göstərir

## Bu şirkətlər iqtisadiyyatın ən müxtəlif sahələri üzrə ixtisaslaşıb

**Davosda keçirilən Dünya İqtisadi Forumunun əvvəlki toplantılarında olduğu kimi, bu dəfə də Azərbaycan diqqət mərkəzindədir. Bunu təsdiqləyən faktlardan ən başlıcası Prezident İlham Əliyevin tədbir çərçivəsində keçirdiyi görüşlərin sayı və sanbalıdır.**



Prezidentimiz Davosda bir sıra ölkələrin dövlət və hökumət başçıları ilə, eləcə də dünyaşöhrətli şirkətlərin rəhbərləri ilə görüşüb. Həm də bu görüşlər məhz qarşı tərəfin təşəbbüsü ilə olub. Bu da Azərbaycana olan hörmətdən, ölkəmizin qazandığı etibarlı tərəfdaş imicindən, dövlətimizin başçısının yüksək nüfuzundan qaynaqlanır.

Prezident İlham Əliyevin görüşdüyü şirkət rəhbərləri birmənalı olaraq Azərbaycanda fəaliyyətlərini genişləndirmək, yaxud işbirliyi qurmaq, əməkdaşlıq və tərəfdaşlıq etmək istədiklərini bildiriblər.

"OliverWyman Group" şirkətinin baş icraçı direktoru Nik Studer görüş zamanı ölkəmizdə müxtəlif qurumlarla mümkün əməkdaşlıq istiqamətlərinə toxunub. Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və "yaşıl enerji" sahələrində həyata keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini bildirib. Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirib.

Qeyd edək ki, "OliverWyman Group" beynəlxalq strateji idarəedici şirkətdir. 35 illik zəngin təcrübəyə malikdir. 29 ölkədə 60 ofisi və 5000 mütəxəssisi var. Şirkət çalışdığı ölkələrdə maliyyə sektoru, pərakəndə ticarət, neft-qaz kompleksi, nəqliyyat və telekommunikasiya sahələrinin müəssisələri, dövlət təşkilatları ilə əməkdaşlıq edir.

Prezident İlham Əliyev "OliverWyman Group"un baş icraçı direktoru ilə söhbətində şirkətin Azərbaycana marağını dəstəkləyərək, ölkəmizin müvafiq qurumları ilə əməkdaşlığın qurulması məsələlərinə toxunub.

Dövlətimizin başçısı qarşı tərəfin müraciəti əsasında "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə də görüşüb. Əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Belə ki, ölkəmizlə şirkət arasında 2010-cu ildən uğurlu əməkdaşlıq həyata keçirilir.

Ümumiyyətlə, 1869-cu ildə təsis edilmiş və mənzil-qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən "The Goldman Sachs Group Inc." investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində xidmət göstərən aparıcı qlobal maliyyə institutudur. Şirkət hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir və müxtəlif siniflər üzrə 2,8 trilyon dollar dəyərində aktivləri idarə edir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "The Goldman Sachs Group Inc." ilə uğurlu tərəfdaşlığı ölkəmizin maliyyə sektorunun inkişafı və beynəlxalq investisiya imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir. Cared Kohen də məhz Prezidentimizlə söhbətində Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, regionda baş verən iqtisadi proseslərin şirkət üçün böyük maraq kəsb etdiyini və gələcəkdə yeni layihələr çərçivəsində tərəfdaşlığın inkişafı istiqamətində potensial imkanların araşdırıldığını bildirib.

Prezident İlham Əliyev Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Yakob Aarup-Andersen ilə də qarşı tərəfin müraciəti əsasında görüşüb. Yakob Aarup-Andersen rəhbərlik etdiyi şirkətin Azərbaycanda uğurlu fəaliyyətinə toxunaraq, ölkəmizdə mövcud olan investisiya mühitindən razılığını ifadə edib, xüsusilə mülkiyyət hüquqlarının qorunması istiqamətində Azərbaycanın xarici investorlara təqdim etdiyi çərçivəni yüksək qiymətləndirərək, yaradılmış şəraitə görə təşəkkürünü bildirib.

1847-ci ildə təsis olunmuş "Carlsberg Group" hazırda dünyada ən iri pivə istehsalçılarından biridir. Şirkətin baş qərargahı Danimarkanın paytaxtı Kopenhagendə yerləşir. "Carlsberg Group" dünyanın üç iri regionunun - Qərbi Avropa, Şərqi Avropa və Asiyanın onlarla ölkəsində zavodlara sahibdir və onun məhsulları 150 ölkədə təqdim olunub. Şirkətin portfelində 140-dan çox pivə markası mövcuddur. Qrupun əməkdaşlarının ümumi sayı 42000-dən çoxdur.

"Carlsberg Azerbaijan" pivəbişirmə zavodu Azərbaycanın paytaxtından 10 kilometr məsafədə Xırdalan şəhərində yerləşir. 1969-cu ildə istismara buraxılıb. "Carlsberg Group"a gələcək inteqrasiya məqsədilə 2017-ci ilin fevral ayından zavod "Carlsberg Azerbaijan" adlanır. "Carlsberg Azerbaijan" ölkəmizdə ən iri pivə istehsalçısıdır.

Davosdakı görüşdə "Carlsberg Group"un ölkəmizdə istehsal olunan məhsullarının lokallaşdırılma səviyyəsinin artırılması və şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi ilə bağlı niyyəti barədə dövlətimizin başçısına məlumat verilib.

Davosda "DP World" şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə də müzakirələr aparılıb. Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulanıb, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olunub. Bu barədə qarşı tərəfin müraciəti əsasında həmin şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşündə söhbət gedib.

"DP World" dünyanın ən böyük liman operatorlarından biridir. Şirkət coğrafi cəhətdən şaxələndirmə baxımından da liderlər sırasındadır. Hazırda "DP World" dünyanın müxtəlif yerlərində 80-ə yaxın limanın operatorluğu ilə məşğuldur. Dünyanın ən böyük investoru və tərtibatçısı, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) hökumətinə məxsus şirkət olan "Dubai World" tərəfindən idarə edilir. Şirkət 2005-ci ildə "Dubai Ports Authority" və "Dubai International Ports"un birləşməsi nəticəsində yaranıb.

"DP World" şirkətinin sədri və baş icraçı direktoru Sultan Əhməd bin Sulaim BƏƏ-nin aparıcı iş adamıdır. Onun geniş təcrübəsi və uzaqgörən rəhbərliyi Birləşmiş Ərəb Əmirliklərində infrastrukturun, o cümlədən dəniz limanları və azad zonalarının sürətli inkişafına təkan verib.

Davosdakı bu və digər görüşlər bir daha göstərdi ki, Azərbaycan investorlar üçün cəlbedici ölkə olaraq qalır. Burada münbit investisiya mühiti var. Müxtəlif sahələrin inkişafına sərmayə yatırmaq istəyən şirkətlər qarşısında yaşıl işıq yanır və onların hüquqlarının qorunmasını təmin edən mükəmməl qanunvericilik bazası var. Ən başlıcası - Azərbaycanın qurub yaradan, dediyi söz də atdığı imza qədər etibarlı olan Prezidenti var!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 23 yanvar (№14 ).- S.6.